*Oxşa könülləri, xalqı sal yada,*
*Təkcə öz halına qalma dünyada.*

**Sədi Şirazi**

# Gözlərimiz peşəkarlara əmanət

## Tanınmış oftalmoloq Tərlan həkimin xeyirxahq missiyası



***Böyük hərflə yazılan insanlıqdan söhbət düşəndə istər-istəməz insana sevgi, ədalət,hünər, həqiqət, sadəlik, halallıq, təmənnasızlıq, yaxşılığa əvəz ummamaq, mənəvi-cismanitəmizlik, ucalıq kimi əxlaqi dəyərlər göz önünə gəlir.***

Biz həmişə kimliyimizdən, əmsiletdiyimiz təbəqə və zümrədən asılı olmayaraq hər an qarşılaşdığımız insanlarda ilk növbədəyüksək insani keyfiyyətlər aramaq niyyətində oluruq. Belələri ilə rastlaşanda içimizdə birheyranlıq, rahatlıq duyğuları yaranır. Özümüzü təsəlli ağacının kölgəsində hiss edirik, daxilaləmimizdə dünyanın qiyməti birə-beş artır, həyat sevgisilə zənginləşirik, işıqlanırıq,nurlanırıq. Yaxşı ki, yaşadığımız cəmiyyətdə insanlıq mücəssəməsi saydığımız insanlar azdeyil. Belə yüksək insani keyfiyyətləri özündə cəmləşdirən dəyərli həkimlərdən biri də Akademik Zərifə Əliyeva adına Respublika Mərkəzi Oftalmologiya Klinikasında peşəkar, zəngin təcrübəyə yiyələnmiş oftalmologiya sahəsində əldə etdiyi elmi-nəzəri biliklərixəstələrin üzərində uğurla tətbiq etməyi bacaran, Bakı şəhərindən və bölgələrdən qəbuluna gələn pasientlərə həssaslıqla, yüksək qayğı və vətənpərvərlik duyğuları ilə yanaşan, görmə qabiliyyətlərini bu və ya digər dərəcədə itirmiş insanların gözlərinə yenidən nur bəxş edərək həyat eşqinə qaytaran oftalmoloq həkim Tərlan xanım Əliyevadır.

Tərlan xanımın həyat kredosu bundan ibarətdir ki, hər bir həkim Hippokrat andına sadiq qalaraq, millətsevərlik, insanpərvərlik hisslərinə köklənərək, ixtisasının sirlərinə yiyələnərək həkimlik missiyasını ləyaqətlə yerinə yetirməlidir. Qədim əfsanədə deyildiyi kimi, Səməndər quşu qaranlıq dünyadan insanları işıqlı dünyaya daşımaqla, onları işıqlı həyata qaytarır, xilas edir. Əfsanəvi Səməndər quşunun işi, peşəsi ancaq bundan ibarətdir. Tərlan həkim də bu gün elinə, obasına, Vətəninə, müstəqil Azərbaycanın göz işığından məhrum olmuş övladlarına Səməndər quşunun etdiklərini edir, qaranlıq dünya ilə işıqlı dünya arasında dayanıb insanlıq borcunu yerinə yetirir. Tərlan həkim təkcə Bakıda deyil, Gəncə, Şəki bölgələrində də tez-tez olur, olduqca çətin, mürəkkəb və məsuliyyətli göz əməliyyatları aparır, xəstələri əvvəlki vəziyyətinə qaytarır. Onlara göz işığı ilə bərabər böyük inam gücü də bəxş edir.

***Tərlan xanım Əliyevanın Gəncə şəhərindəki uğurlu əməliyyatlarından onun etimadını qazanan pasiyentləri həmişə ağızdolusu danışırlar ki, onlardan biri də 4 ay əvvəl pilləkəndən yıxılaraq sol gözü ağırlaşdırıcı zədə almış, sağalmasına ümid olmayan, görmə qabiliyyətini yüz faiz itirmiş ali təhsilli Məmmədov Faiq Daşdəmir oğludur.***

Bu barədə Faiq müəllim öz fikirlərini oxucularla bölüşür:

- Başıma gələn yıxılma hadisəsindən bir neçə saat əvvəl məni Gəncə şəhər göz xəstəlikləri klinikasına apardılar. Elçin həkim məni hərtərəfli müayinə edərək, son nəticəni etdikdən sonra mənə bildirdi ki, sol gözün çox dərin zədə alıb, sənin müalicən bizim gücümüzdən kənardır. Sənə göndəriş verək, Akademik Zərifə Əliyeva adına Respublika Mərkəzi Klinikasına oftalmoloq həkim Tərlan Əliyevanın qəbuluna göndərək. Mən göndəriş əsasında sözügedən ünvana göndərildim. Tərlan xanım Əliyeva məni təcili olaraq hərtərəfli müayinə etdi, mənə bildirdi ki, təcili əməliyyat olunmasan görmə qabiliyyətini itirmə sağ gözünə də keçəcək. Tərlan həkim məni 2 gün sonra əməliyyat etdi. Əməliyyatdan 3 gün sonra evə buraxıldım. Gözümün açılmasına şans olduqca az idi, həkim isə mən ruhdan düşməyim deyə, həyat yoldaşıma bu çətinliyi demişdi, o da məndən gizli saxlamışdı. Həkim bir ay sonra sarğını açdı və sevinc hissi keçirərərk dedi ki, əməliyyat yaxşı keçib. Mən 2-ci əməliyyata Şəki şəhərinə çağırıldım. 2-ci əməliyyat olundum, bir ay sonra gözümün sarğısı açıldı və mən 20 faiz görməyə başladım. Bu əməliyyatların nə qədər ağır, mürəkkəb olduğunu Tərlan həkim mənə sonra bildirdi, mən onun şəfalı əllərinin, peşəkarlığının, elmi biliklərinin hesabına əbədi kor qalmadım. Hazırda görmə qabiliyyətimin tam bərpası üçün 3-cü əməliyyata hazırlaşıram. Əminəm ki, çox uğurlu olacaq. Tanrıma minnətdaram ki, məni xilas etmək üçün Tərlan xanım Əliyevanın müayinə və müalicəsinə yönəltdi. Gözümün görmə qabiliyyətini bərpa etdiyinə görə bütün ailə üzvlərim olduqca ideal oftalmoloq, gözəl insan Tərlan həkimə gecə-gündüz alqışlar ünvanlayırlar.

Onu da vurğulamaq istəyirəm ki, hələ sovetlər dönəmində bütün SSRİ, dünyaməkanında məşhurlaşmış xalqımızın böyük ad-san sahibi, oftalmologiya elminə töhfələrvermiş dəyərli qızı Akademik Zərifə Əliyevanın adını daşıyan Respublika MərkəziKlinikasında yaradılmış yüksək şəraitə, tibbi-texnoloji avadanlıqlara, xəstələrə göstərilənmehriban, doğma münasibətə görə klinikanın rəhbərliyinə, burada çalışan bütün personalaöz minnətdarlığımı bildirirəm.

***Bəli, Faiq müəllim Tərlan xanım Əliyevanın uğurlu əməliyyatlarla yola saldığı,alələrinə gözünurlu qaytardığı yüzlərlə pasientlərdən biridir. Bunların arasında Vətənmüharibəsi qaziləri, şəhid ailələri də vardır. Biz də öz növbəmizdə Faiq Məmmədovunalqışına qoşularaq dua edirik ki, Tərlan xanım kimi həkimlərin şəfalı əlləri bu millətinüstündən əskik olmasın.***

***Tanrı qorusun!***

**Aydın MUROVDAĞLI**

Türküstan.-2021.- 19-25 oktyabr.- S.13.